*https://doi.org/10.30546/114578.2025.10.4031*

## MAHİRƏ NAĞIQIZININ POETİK İRSİ VƏ MÜASİR ƏDƏBİ TƏNQİD

**Razim Məmmədov**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*http://ORCİD.org./0000-0002-5694-9501*
*r_mamedli@mail.ru*

**Xülasə**

Çağdaş Azərbaycan poeziyasında qadın şairlər arasında öz dəst-xətti ilə seçilən, bir sıra bədii yeniliklərə imza atan, poetik irsi ilə ədəbiyyatımızı zənginləşdirən Mahirə Nağıqızının yeri və dəyəri danılmazdır. Onun yaradıcılığı aktuallığı və müasirliyi ilə seçilir. Şairin şeirlərində Vətənə, mənsub olduğu xalqa səmimi münasibət xüsusilə diqqəti cəlb edir. Sənətkarın bədii nümunələrində Vətən müharibəsində düşmən üzərində Zəfərin şanlı səhifələri böyük ruh yüksəkliyi ilə tərənnüm olunur. M.Nağıqızının poetik təfəkkürü, milli təəssübkeşliyi ədəbi tənqidin də nəzərindən yayınmır, qələmindən çıxan poetik nümunələr respublikamızın tanınmış ədəbiyyatşünas alimləri tərəfindən öyrənilir və təqdir olunur.

**Açar sözlər**: Mahirə Nağıqızı, poeziya, özünəməxsusluq səciyyəvi cəhətlər, Vətən, vətənpərvərlik, ədəbi tənqid, estetik baxışlar.

## MAHIRE NAGHIQIZI'S POETICAL HERITAGE AND MODERN LITERARY CRITICISM

**Razim Mammadov**
*Azerbaijani State Pedagogical University*

**Abstract**

The place and value of Mahira Naghigizi, who stands out among female poets in contemporary Azerbaijani poetry with her own style, has made a number of artistic innovations, and enriched our literature with her poetic heritage, is undeniable. Her creativity is distinguished by its relevance and modernity, and the sincere attitude towards the Motherland and the people she belongs to in the poet's poems attracts particular attention. In the artist's artistic

examples, the glorious pages of victory over the enemy in the Patriotic War are sung with great enthusiasm. M. Naghigizi's poetic thinking and national fanaticism do not escape the attention of literary criticism. The poetic examples written by the poet are studied and appreciated by well-known literary scholars of our republic.

**Key words:** Mahira Naghigizi, poetry, originality, characteristic features, Motherland, patriotism, literary criticism, aesthetic views.

## ПОЭТИЧЕСКОЕ НАСЛЕДИЕ МАХИРЫ НАГИКЫЗЫ И СОВРЕМЕННАЯ ЛИТЕРАТУРНАЯ КРИТИКА

**Разим Мамедов**
*Азербайджанский государственный педагогический университет*

**Резюме**

Место и значение Махиры Нагикызы, выделяющейся среди женщин-поэтов современной азербайджанской поэзии своим неповторимым стилем, внесшей ряд художественных новаций и обогатившей нашу литературу своим поэтическим наследием, неоспоримы. Её творчество отличается актуальностью и современностью, а искреннее отношение к Родине и народу, пронизывающее стихи поэтессы, привлекает особое внимание. В её творчестве с большим воодушевлением воспеваются славные страницы победы над врагом в Отечественной войне. Поэтическое мышление и национальный фанатизм М.Нагикызы не ускользают от внимания литературной критики. Поэтические образцы поэтессы изучаются и высоко оцениваются известными литературоведами нашей республики.

**Ключевые слова:** Махира Нагикызы, поэзия, самобытность, характерные черты, Родина, патриотизм, литературная критика, эстетические взгляды.

**Giriş/Introduction**

Çağdaş Azərbaycan ədəbiyyatının inkişaf yoluna nəzər saldıqda milli poeziyamızın bir sıra yeniliklərə imza atdığının şahidi oluruq. Özü də bu “yeniləşmə, modernləşmə yalnız üslubda, poetik ifadədə deyil, həm də fikirdə, misraların dərinliyində, orijinal bədii təsvir və ifadə vasitələrində, təsvir olunan lirik qəhrəmanın tale yaşantılarının önə çıxmasında özünü daha aydın” büruzə

verir. Müasir dövrdə özünəməxsus poetik üslubu ilə seçilən söz sənətkarlarından biri də Mahirə Nağıqızıdır. "*Özünün yaşantılarını başqalarının hiss və duyğuları ilə" əlaqələndirməyi bacaran Mahirə Nağıqızının "poeziyasına elmi-nəzəri prizmadan yanaşsaq, görərik ki, onun şeir yaradıcılığı poeziyamızın yaşarı əlaqələrinə sıx bağlıdır, eyni zamanda müasir şeir mədəniyyəti, həyati gerçəkliyi inikas nöqteyi nəzərindən də yeni, novator keyfiyyətləri ilə diqqəti cəlb edir"* [Bayramov, 2020:86]. Bu mənada müasir poeziyamızın yeni məna kəsb etməsində və zənginləşməsində böyük əməyi olan Mahirə Nağıqızının yaradıcılığını çağdaş ədəbi tənqiddə daim diqqət mərkəzində saxlayır. Məlumdur ki, ədəbi tənqidin əsas vəzifəsi müasir ədəbi prosesi, yeni təşəkkül tapan əsərləri, eləcə də keçmiş irsi müasir ictimai və ədəbi-estetik tələblər baxımından öyrənmək və onu dəyərləndirməkdən ibarətdir. İngilis alimi Tomas Eliof yazır ki, tənqidin bu funksiyanı yerinə yetirmək ən münasib predmet olaraq şeirin üzərində dayanır. O, "Tənqidin hədəfləri" məqaləsində yazır: "*Amma tənqiddən söhbət gedəndə şeir ən lazımlı predmetdir, çünki şeir forma xüsusiyyətlərini ümumiləşdirmək üçün daha çox imkan verir. Elə görünə bilər ki, şeirdə üslub hər şeydir. Bu hökm doğru deyil, ancaq söhbət ədəbi tənqiddən gedirsə ən saf estetik təcrübəni poeziya vasitəsilə yaşayırıq, illüziyası şeiri nəzərdə saxlanılan əsas mövzuya çevirir*" ["Ulduz", 2025:45].

Mahirə Nağıqızının lirikası bu gün ədəbi tənqidin də diqqət mərkəzindədir. Şairin müxtəlif mövzularda qələmə aldığı poetik nümunələrlə bağlı çoxsaylı ədəbi-tənqiqi, elmi-nəzəri kitablar, monoqrafiyalar, məqalələr yazılıb, sənətkarın poetik təfəkkürü, milli təəssübkeşliyi haqqında qiymətli fikir və mülahizələr söylənilib. Akademik İsa Həbibbəyli, professor Təyyar Salamoğlu, professor Nadir Məmmədli, professor Elman Quliyev, professor Mahmud Allahmanlı, professor Rüstəm Kamal, professor Məhərrəm Hüseynov, professor Tərlan Novruzov, professor Vüqar Əhməd, professor İsmayıl Kazımov, dosent Qüdrət Umudov, Firuz Kazımoğlu, Əli Rza Xələfli və başqa istedadlı tədqiqatçılar Mahirə Nağıqızının bədii yaradıcılığı haqqında yüksək səviyyəli məqalələr yazıb və nüfuzlu mətbuat orqanlarında, elmi jurnallarda çap etdiriblər.

Mahirə Nağıqızının poetik irsindən söhbət açan akademik İsa Həbibbəyli şairi haqqın, ədalətin carçısı kimi dəyərləndirərək yazır: "*Haqqın səsinin ifadəçisi və carcısı olmaq Mahirə Nağıqızının bədii yaradıcılığında da özünəməxsus şəkildə canlandırılmaqdadır. Onun poeziyası qadın qüruru ilə kişi mərdliyinin aydın poetik ifadəsidir. Mahirə Nağıqızı lirik poeziyanı insanın*

*mənəvi aləminin tərənnümündən vətəndaşlıq şeiri səviyyəsinə qaldıran şairdir*" [Hüseynova, 2022:18].

Həyat həqiqətlərini duymaq, onları bədii dillə oxuculara çatdırmaq bacarığı ilə seçilən Mahirə Nağıqızının yaradıcılığını diqqətlə təhlil edən professor Təyyar Salamoğlu onu "müstəqillik illərində sənətin zamanla səsləşməsinə təkan verən" istedadlı şairlərdən biri hesab edir. O, şairin "dünyaya fərdi yaşantılarının prizmasından baxan" söz sahibi olduğunu bildirərək yazır: "*Sözün geniş mənasında, çağdaş ədəbi prosesə Mahirə Nağıqızı 2000-ci illərdə qoşulur, əsrin onilliyi şeirlərində işlətdiyi "Mahirə" və "Nağıqızı" təxəllüslərinin özünütəsdiqi ilə yadda qalır*" [Salamoğlu, 2022:92]. Alim onu da vurğulayır ki, şairə keçən əsrin sonlarından başlayaraq respublikamız dövrün sərt problemləri ilə üz-üzə qalanda zamanın nəbzini tutmağa səy göstərir və tezliklə onun dünyagörüşündə milli hissiyyat daha da güclənir, öz xalqına ürəkdən bağlı olan ziyalı kimi vətəndaşlıq borcunu duyur və bu mövqeyini öz poetik nümunələrində daha artıq nümayiş etdirməyə nail olur. Bu mövqedən çıxış edərək söyləmək olar ki, şair özünü millətin və dövlətin üzləşdiyi ağır sınaqların əhatəsində görür, onun ictimai-siyasi baxışları poetik düşüncəyə çevirir və bunu bir ziyalı, şair kimi özünə müqəddəs borc hesab edir. Professor Nadir Məmmədli haqlı olaraq yazır ki, Mahirə Nağıqızının "*milli qüruru doğulduğu torpağa borcudur! Azərbaycan adlı vətənin adındakı can (!) kəlməsinə şərəf hissilə bağlıdır. Şeirlərində, poetik müraciətlərində həmişə məqamına sadiqdir – onu düşündürən, narahat edən ədəbi ideallarını oxuculara çatdırır. Mahirə Nağıqızı mübariz şairdir, mübarizliyi onu mənəvi qələbələrə, inama, etibara, cəsarətə, düzlüyə, mərdliyə, kamilliyə, dözümlülüyə, döyüşkənliyə və ən ümdəsi isə məhəbbətə ruhlandırır. Vətənə, yurduna məhəbbəti bütün sevgilərin fövqündə dayanır. Bu fərqli anlayışlar çox zaman bir fərddə bütöv şəkildə qovuşmurlar, bu amillər fəlsəfi-əxlaqi dəyərlərdir, ədəbi, elə elmi fəaliyyəti üçün həyat həqiqətləridir. Ona görə də poeziya elmini, şəxsiyyətini tamamlayır və şeirləri özünə bənzəyir*" [Hüseynova, 2022:34].

Ədəbi tənqid Mahirə Nağıqızının yaradıcılığında Vətən mövzusunun qırmızı xəttlə keçdiyini vurğulayır. Şairin şeirlərində "*müasir həyatdan, yaşadığımız bu dünyadan, əlbəttə ilk növbədə Azərbaycan gerçəkliyindən aldığı lirik təəssüratlar, duyğu və düşüncələr axarında öz əksini tapir*" [Hüseynova, 2022:87]. Firuz Kazımoğlu haqlı olaraq vurğulayır ki, "tarix onu da dönə-dönə sınaqdan keçiribdir ki, "mən"lərin yaratdığı "mənəm-mənəmlər"in dominatlıq etdiyi heç bir toplum Millət yoluna çıxa bilməyib, elə toplum olaraq qalıb. Toplum üçünsə Vətən olmaz, ola bilməz. Vətənsə adicə torpaq və yaxud daş

parçası, su və hava deyil, o, insanın içində hürr tapdığı qalasıdır. Və bu hisslər Mahirə Nağıqızının şeirlərində qəribə istilik yaradan tərzdə verilir. O istiliyi isə heç birimizin unuda bilməyəcəyimiz ana qucağında tapmışıq. “Vətən” şeirini oxuduqca, onun hər bir misrası buna görədir ki, oxucuya dogma gəlir və bu doğmalığın içərisində o, bəlkə də heç vaxt fərqində olmadığı gerçəkliklərlə üzbəüz qalır:

*Bitər sərhədlərin bu yer üzündə,*
*Qəlbimdə sərhəddin nədən bitmədi?*
*Gəmisən, üzərsən eşq dənizində,*
*Sənə məhəbbətim, Vətən, bitmədi.*

*Əlimin qabarı, alnımın təri,*
*Köksünə atdığım bircə dən olsun.*
*Canımı verərəm səndə ötəri,*
*Ruhum sağlığınnan xətircəm olsun!* [Nağıqızı, 2020:50].

Bu şeirin səciyyəvi xüsusiyyətlərindən, şairin vətən sevgisinin böyüklüyü və hüdudsuzluğundan söhbət açan Firuz Kazımoğlu yazır: “*Bu, yaralanmış Vətən üçün elegiya deyil, heç oxşama və ya ağı da deyil; bu insanın öz borcu ilə təkbətək qalması, gücünü toplaması, o gücü haraya və necə sərf etmək barədə verdiyi qərardır... Şair Millətinin və Vətəninin yaralarından axan qanı özününkü bilir, onu da bilir ki, qaysaqlanmış bu yaraların məlhəmi haradadır və “harada olduğu” bilinən o məlhəmə üz tutur”* [Kazımoğlu, 2020:27].

Mahirə Nağıqızının Vətən mövzusunda şeirlərindən söhbət açan professor Təyyar Salamoğlu şairin “Salam olsun” kitabında toplanmış poetik nümunələri “yeniyetmələrdən və gənclərdən, ümumiyyətlə, oxuculardan ibarət auditoriya” üçün “hərbi vətənpərvərlik mövzusunda yazılmış əsərlər kimi dəyərləndirir. Alimin “Zəfərimiz və ədəbiyyatımız” sərlövhəli məqaləsində oxuyuruq: “*Salam olsun” mücadilə hərəkatından doğulmuş kitabdır. Mahirənin şeirləri qələbəyə gedən yolu təsvir və tərənnüm edən mükəmməl poetik sistemə malik bir qəhrəmanlıq dastanının türküləri kimi oxunur*” [Salamoğlu, 2024:98].

*Ey tarixi sətir-sətir yaradanlar,*
*Nə şanlısınız, şamınızla salam olsun!*
*Qalacaqdır bu tarixdə var olanlar,*
*Silinməz ad-sanınıza salam olsun!*

*Şəhidlərim, haqqınız var çiynimizdə,*
*Kəfən geydik, qalacaqdır əynimizdə.*

*Çıxmayacaq, yaşayacaq eynimizdə,*
*Tökülən al qanınıza salam olsun.*

*Ələm idi, qüssə idi hər çağımız,*
*Otuz ildən sonra güldü novrağımız.*
*Dalğalandı Şuşada al bayrağımız,*
*Qurban olum, hamınıza salam olsun* [Nağıqızı, 2020:108]

T.Salamoğlu bu şeirin məzmunundan çıxış edərək "bu hökm haqqın səsidir, haqqı olanın nahaq üzərində qələbəsinə birmənalı inamın ifadəsidir. Bu səs dünyanın haqqa çağırış harayıdır. Dünyanı haqqın tərəfində olmağa, onu müdafiə etməyə çağırışdır. Bu, dünyanı ədalətsiz mövqeyinə görə ittiham aktıdır", - deyə bildirir.

Şeirdə Mahirə Nağıqızının "baş verən tarixi olayların tarixləşdirilməsini funksiyasını" məharətlə gerçəkləşdirə bilməsini ön plana çəkən T.Salamoğlu yazır: *"...Şəhidlərimizə üz tutaraq "haqqınız var çiynimizdə" deməsində bir ana müdrikliyinin ifadəsi var, sonsuz Vətən sevgisindən doğan minnətdarlıq duyğularının həzin bir tonla poetikləşdirilməsi var. Eyni zamanda, onun poeziyasında bu sevincli tariximizi yaradanların haqqının heç zaman unudulmayacağının həqiqi sənət dili ilə əksi var. Şairənin səsində və sözündə Dədəm Qorqud alqışının müdriklik tonu var. Bu ton bizi şəhidlərimizin geydikləri kəfəni müqəddəs tutmağa, heç vaxt əynimizdən çıxarmamağa, yaddaşsızlıqdan yaxa qurtarmağa, baş verənləri tarix boyu unutmamağa səsləyir. Onun "salam" larında sevinc ahəngi ilə bərabər, qeyr-adi səmimiyyətdən doğan bir ülvilik var. Baş verən bütün bu şərəf tariximizi əbədiyaşar, "Söz"ə çevirən sənətkara qarşı içimizdə isti duyğular yaranır, misradan misraya keçən "Söz" ü onu bizə doğmalaşdırır. Bu bədii sözün insan içindən oyatmaq, onu təsirləndirmək, ona ruh vermək gücüdür*" [ Salamoğlu, 2024:104-105].

Mahirə Nağıqızının poetik imkanlarının geniş olduğunu diqqətə çatdıran T.Salamoğlu qətiyyətlə bildirir ki, Cəbrayılın, Füzulinin, Zəngilanın, Şuşanın alınması, Qələbə və Zəfər günləri münasibətilə yazdığı şeirlər "hər dəfə qələbə müjdəsi səslənəndə, qəbul olunan xəbərlərin təsiri altında bədahətən yaranmışdır. Yəqin ki, şair özü də təsdiq edər ki, aşağıdakı misralar haçan içinə dolub, haçan şeirə çevrilib, heç özü də xəbər tutmayıb. Çünki həmin anda Mahirənin varlığı bütövlükdə Şuşanın alınmasından doğan miqyassız emosional yaşantılarının təsiri altında olub:

*Möhnətimiz sona yetdi,*

*Şuşa xoş görmüşük səni*
*Vüsal gəldi, həsrət bitdi,*
*Yaşa, xoş görmüşük səni.*

Həmişə poetik axtarışda olan Mahirə Nağıqızı “sinədən gələn sözlərini oxucusuna çatdırmaq üçün “salam olsun” deyimi onun şeirlərində uğurlu bədii vasitəyə çevrilir. “Salam”, “Salam olsun” deyimləri bir çox hallarda şeirlərinin sətlövhəsinə çevrilərək, eyni zamanda, rədif funksiyasında çıxış edərək, dönə-dönə təkrarlanır. Lakin hər dəfə də bu təkrar şeirə yeknəsəqlik yox, yüksək poetik vüsət gətirir” [Salamoğlu, 2024:105].

Şairin şeirinə “yüksək poetik vüsət gətirən “salam”, “salam olsun” deyimlərini Firuz Kazımoğlu belə dəyərləndirir: “*Bu, əbədi qalacaq insanlıq dəyərlərinə göndərilən salamlardır. Bu, həmin dəyərlərin simvollarına ünvanlanan Ana dualarıdır. Bu, ədəbiyyatın həmişəyaşar missiyasının nümunələrindən biridir”* [Bayramov, 2020:6].

F.Kazımoğlu “Salam olsun” kitabına daxil edilən poetik nümunələrdən danışarkən onu da vurğulayır ki, “O, da mübahisəsiz qəbul oluanan gerçəklikdir ki, “Vətən” anlayışının mahiyyəti ilə bərabər, genişliyini dərk etmədən onu duymaq və özünü onun bir parçası hiss etmək mümkünsüzdür. Vətən qarşısında bu borc da o duyum ilə yaranır. Mahirə Nağıqızının bütün şeirlərinin leytmotivində həmin duyğuların hansısa elementi görünür və beləcə, quruca torpaq və yaxud yamyaşıl vadilər, uzanan çöllər və ya sıldırım qayalı dağlar, axarlı-baxarlı çaylar və həmin çaylar öz məcrasında son mənzilə qədər aparan dərələr-bütün bunlar “o”nun , “bu” nun deyil, “sən” in olur. Buna görə də “Sən” in olan həyatının bir parçası olmaqdan əlavə, qəlbinin bir parçasına çevrilir və şairin “Vətəndir” şeirinin axıcı, rəvan dilində Onun mahiyyəti, bu mahiyyətindən doğan doğmalarını yaşayırsan” [Kazımoğlu, 2020:16].

*Bu vətən deyilən torpaq deyil ki,*
*Anamın dizinin yanı – vətəndir.*
*Başını qoymağa bir sinə varsa,*
*Ruhuna beşiksə, tanı vətəndir* [Nağıqızı, 2020:38].

Müəllifin qənaətinə görə, “başını qoymağa bir sinə varsa” “ruhuna beşiksə” – tanı vətəndir və Mahirə Nağıqızının ana hisslərinin qovuşduğu şeir beləcə oxucusunu öz axarına qatır, hər vaxt olduğu kimi, şairin rəvan dili ilə “vətən” fəlsəfəsinin bəlkə də çoxlarının ağlına gəlməyən, “ürəyinin ən dərin guşələrində” ki, laylalardan xəbər verir” [Kazımoğlu, 2020:17].

T.Salamoğlu isə bu şeirə ictimai-siyasi mühitinin çağdaş ədəbi prosesə təsiri baxımından qiymət verir. Onun elmi təhlilindən aydın vurğulayır ki, Mahirə Nağıqızının şeirlərinin böyük əksəriyyəti Vətən sevgisindən keçərək həyata vəsiqə qazanıb. Tədqiqatçının fikrincə şairin poetik nümunələri keçən hər gündə milli yaddaş oyadır, Vətən obrazını bütövləşdirir, bu bütövlüyə, milli düşüncəyə hər hansı bir xələl gəlməsinə imkan vermədiyini diqqətə çatdırır. Tədqiqatçı şeirlə bağlı fikirlərini ümumiləşdirərək yazır: "*Barışmazlıq siyasətinin ictimai-siyasi həyatımızda təzahür edən çox amilləri var. Və düşünmək olar ki, bütün amillərin hamısı Vətən sevgisindən keçib həyata vəsiqə alır və real gücə çevrilir. Bu mənada düşünürük ki, Mahirə şeiri keçən hər gündə milli yaddaşı oyandırır, bu yaddaşda Vətənin obrazını bütövləşdirir, itirilmiş torpaqlarımız hesabına bu bütövlüyə milli düşüncədə hər hansı bir xələl gəlməsinə imkan vermir, "Vətəndir" şeiri də belə yaranır* [Salamoğlu, 2024:98].

Mahirə Nağıqıznın poetik irsini geniş elmi təhlilini verən ədəbi tənqid onun şeirlərinin çağdaş Azərbaycan poeziyasının qiymətli sənət nümunələri hesab edir, bu bədii mətnlərin şanlı tariximizin təbliğində, milli-mənəvi dəyərlərimizin yüksəlməsində, bütövlüyümüzün qorunmasında böyük rol oynayacağını əminliklə vurğulayır. Eləcə də Mahirə Nağıqızının geniş diapozonlu yaradıcılığına, onun vətəndaş qayğısı ilə həyat həqiqətlərini bədii gerçəkliyə çevirə bilmək bacarığını yüksək qiymətləndirir.

## ƏDƏBİYYAT/REFERENCES

1. Bayramov, Q. (2020). Söz hikmətindən, ona sevgisindən doğan nəğmələr, oradan da, haqqa çağıran səsə − ruhun beşiyin... / Mahirə Nağıqızının poeportreti. M.Nağıqızı "Onun daş nağılı" kitabı. – Bakı:

2. Hüseynova, M. (2020). Estetik qayə və poetik təkamül. – Bakı: ADPU-nun nəşriyyatı. – 297 s.

3. Kazımoğlu, F. (2020). Vətən üçün çırpınan misralar, məqalə / "Salam olsun" kitabı. – Bakı: ADPU-nun nəşriyyatı. – 142 s.

4. Nağıqızı, M. (2020). Salam olsun. –Bakı:ADPU-nun nəşriyyatı. –142 s.

5. Nağıqızı, M. (2020). Onun daş nağılı. − Bakı: ADPU-nun nəşriyyatı. – 311 s.

6. Nağıqızı, M. (2021). Yanından keçmə dağların. – Bakı: ADPU-nun nəşriyyatı. – 142 s.

7. Hüseynova, M. (20220. Bir təfəkkür tərzinə fərqli baxışlar / Mahirə Hüseynova: Alim və şair ömrünün detalları. – Bakı: ADPU-nun nəşriyyatı. – 292 s.

8. Salamoğlu, T. (2024). Zəfərimiz və ədəbiyyatımız //"Azərbaycan" jurnalı. – № 11. – s.176.

9. Eliof T. (2025). Tənqidin hədəfləri // "Ulduz" jurnalı, № 07-08. – Bakı: ASPOLİQRAF LTD MMC. – 96 s.

**Məqalə tarixçəsi**

*Daxil olub* *25.09.2025*

*Qəbul edilib* *07.10.2025*

*Nəşrə tövsiyə edib* *Leyla Vəzirova*

*filologiya elmləri doktoru, professor*